**AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRLİYİ**

**Ə M R**

**№** 53

**Bakı şəhəri** "04" İyul 2017 **il**

**"2017/2018-ci tədris ili üçün rezidenturaya qəbul planı haqqında"**

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2017-ci il 10 may tarixli 310 s nömrəli sərəncamı ilə təsdiq edilmiş "2017/2018-ci tədris ili üçün ayrı-ayrı ixtisaslar üzrə Azərbaycan Respublikası Təhsil Nazirliyinin, digər nazirlik və təşkilatların tabeliyində olan ali təhsil müəssisələrinin, elmi təşkilatların magistratura, tibb təhsili üzrə rezidentura səviyyəsinə tələbə qəbulu planı"na əsasən rezidenturaya 471 nəfərin qəbulu müəyyən edilmişdir. Qeyd olunanları nəzərə alaraq

**ƏMR EDİRƏM:**

1. Kadrlar, elm və təhsil şöbəsinin müdiri K.Mehdiyevaya tapşırılsın ki, 2017/2018-ci tədris ilində ixtisaslar üzrə təsdiq edilmiş rezidenturaya qəbul planı icra olunmaq üçün rezidentura üçün baza kimi müəyyən edilmiş təhsil, elm müəssisələri və klinikalara təqdim edilsin (əlavə olunur).

2. Rezidentura üzrə bazaların rəhbərlərinə tapşırılsın:

2.1. 2017/2018-ci tədris ili üçün təsdiq edilmiş rezidenturaya qəbul planından irəli gələn təşkilati və metodik məsələlər həll edilsin;

2.2. 2017/2018-ci tədris ili üçün rezidenturaya qəbulun yekunları barədə Səhiyyə Nazirliyinə məlumat verilsin.

3. Əmrin icrasına nəzarət nazir müavini N.Əliyevaya həvalə edilsin.

**Oqtay Şirəliyev**